**23.02.2024: xəbər**

## "Center for Mathematics and its Applications" Established at Khazar University

On February 9, 2024, an order was issued on the establishment of the scientific research center " Center for Mathematics and its Applications " at Khazar University. This center will operate as an independent structural unit of Khazar University, independent of the Department of Mathematics. Professor Vugar Ismayilov has been appointed as the director of the center, while Professor Anar Ahmadov will serve as the co-director, and Ali Huseynli, the head of Khazar University's Mathematics Department, has been appointed as a coordinator.

Vugar Ismayilov, a renowned mathematician from Azerbaijan, has previously worked at the Israel Institute of Technology and is frequently invited as a speaker at Oxford University. His monograph was recently published by the American Mathematical Society (AMS), a unique achievement among mathematicians in Muslim countries, as well as in Georgia and Armenia

Anar Ahmadov pursued his bachelor's degree at California State University and completed his doctoral studies at the University of California, Irvine. Currently, he holds a full professorship at the University of Minnesota. He is globally recognized for his expertise in the field of Algebraic

Topology, and for his scientific achievements, he has been awarded some of the most prestigious scholarships in the field of mathematics, including the Humboldt Research Fellowship for Experienced Researchers, the American Mathematical Society Fellowship for 2020, in recognition of his contributions to core problems in topology, and the Simons Collaboration Grant for Mathematicians 2018-2022. Additionally, he has served as an invited professor at Harvard University and other renowned institutions.

The initial team of the center consists of 12 people, 6 of whom are mathematicians living abroad.

**Xəzər Universitetində "Riyaziyyat və onun tətbiqləri" elmi-tədqiqat mərkəzi yaradılıb**

2024-cü il fevralın 9-da Xəzər Universitetində "Riyaziyyat və onun tətbiqləri" elmi-tədqiqat mərkəzinin (Center for Mathematics and its Applications) təsis edilməsi haqqında əmr imzalanıb. Bu mərkəz Riyaziyyat departamentindən asılı olmayan, Xəzər Universitetinin sərbəst bir struktur bölməsi kimi fəaliyyət göstərəcək. Mərkəzin direktoru professor Vüqar İsmayılov, həmdirektoru professor Anar Əhmədov və Xəzər Universiteti Riyaziyyat departamentinin müdiri Əli Hüseynli Xəzər Universiteti üzrə koordinator təyin ediliblər.

Vüqar İsmayılov bir müddət İsrail Texnologiya İnstitutunda (Israel İnstitute of Technology) işləmiş, müntəzəm olaraq Oksford Universitetinə məruzəçi kimi dəvət olunan, Azərbaycanın beynəlxalq miqyasda tanınan riyaziyyatçısıdır. Bir müddət əvvəl onun monoqrafiyası Amerika Riyaziyyat Cəmiyyətini (AMS) tərəfindən nəşr olunub. Qeyd edək ki, bu, müsəlman ölkələrində, həmçinin Gürcüstan və Ermənistanda fəaliyyət göstərən riyaziyyatçılar arasında yeganə nümunədir.

Anar Əhmədov Amerikada - Kaliforniya Dövlət Universitetində bakalavr, İrvaynedəki Kaliforniya Universitetində doktorantura təhsili alıb, hazırda Minnesota Universitetində full professor işləyir. Qeyd edək ki, Anar Əhmədov riyaziyyatın Cəbri Topologiya (**Algebraic Topology)** sahəsində dünyada tanınmış mütəxəssisdir və elmi uğurlarına görə Təcrübəli Tədqiqatçıların Humbolt Tədqiqat Təqaüdü **(Humboldt Research Fellowship for Experienced Researchers)**, 2020-ci il üçün Amerika Riyaziyyat Cəmiyyətinin Təqaüdü (topologiyanın əsas problemlərinin tədqiqinə töhfələr üçün **(American Mathematical Society Fellow for 2020; for contribution to core problems in topology)**, Riyaziyyatçıların 2018-2022-ci illərdə elmi əməkdaşlığı üçün Saimons Qrantı **(Simons Collaboration Grant for Mathematicians 2018-2022)** kimi riyaziyyat sahəsində ən mötəbər təqaüdləri qazanmış, Harvard və digər məşhur universitetlərdə dəvətli professor işləmişdir.

Mərkəzin ilkin tərkibi 12 nəfərdən ibarətdir və onun 6-sı xaricdə yaşayan riyaziyyatçılardır.